Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Yenilənmişdir: iyun 2024

# Işgüzar səfər, sərgidə iştirak – məlumat vərəqəsi

Şengen vizası ilə bağlı **ümumi məlumatlarla** əvvəlcədən tanış olmağınızı xahiş edirik.

180 günlük müddət ərzində 90 gündən artıq olmayan qısamüddətli səfərlər üçün Şengen vizası almaqdan ötrü **yalnız „VisaMetric" servis mərkəzinə** müraciət edilə bilər.
„VisaMetric "servis mərkəzinin ünvanı: **D. Əliyeva küç, 106, Winter Park Plaza, 1-ci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/az/p/qebulun-goeruesuen-teyin-edilmesi

**Ərizəçilərin viza üçün səndələri səfirliyə daxil olduqdan sonra aşağıdakı müddət ərzində işlənilir:**

- „Avropa İttifaqı ilə vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında Saziş"in qüvvədə olduğu ölkələnin vətəndaşı üçün təxm. 10-15 gün. Ayrı-ayrı hallarda viza müraciətinə baxılma müddəti 30 təqvim gününə qədər uzadıla bilər, xüsusən əlavə yoxlama tələb olunan hallarda.
- „Avropa İttifaqı ilə vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında Saziş"in qüvvədə **olmadığı** ölkənin vətəndaşı üçün təxm. 15-45 gün.

Xahiş edirik nəzərə alın ki, viza sənədlərinə baxılma müddəti dövlət bayramlarından əvvəl (Novruz , Milad/Yeni il) və yay aylarında müvəqqəti olaraq uzana bilər. Buna görə də viza ərizələrini mümkün qədər tez təqdim etmək tövsiyə olunur. Şengen vizası üçün ərizənizi Şengen dövlətlərinin ərazisinə nəzərdə tutulan giriş tarixindən 6 ay əvvəl təqdim edə bilərsiniz.

İşgüzar səfər, sərgini ziyarət etmək və ya sərgidə iştirak etmək üçün viza almaqdan ötrü Siz aşağıdakı sənədləri təqdim etməlisiniz. Sənədləri toplayarkən bu məlumat vərəqəsindən yoxlama siyahısı kimi istifadə edin☑.

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| **Xarici pasport**<br>☐ müraciət edilən vizanın bitəcəyi tarixdən sonra ən az 3 ay etibarlı olmalıdır<br>☐ ən azı 2 boş səhifəsi olmalıdır<br>☐ xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin surəti |
| ☐ **Şəxsiyyət vəsiqəsi** *(əsli + ön və arxa səhifələrin surəti)* |
| ☐ tam şəkildə doldurulmuş və imza üçün nəzərdə tutulmuş yerlərdə imzalanmış viza üçün ərizə forması |
| ☐ yeni biometrik **pasport şəkli** (3,5 x 4,5 cm) |
| ☐ **Viza rüsumu** (bax: Visametric internet səhifəsində „Rüsumlar" bölməsi) |
| **Səyahət sığortası** *(əsli + surəti)*<br>☐ sığorta ödənişinin minimal məbləği 30.000 € və ya 50.000 $<br>☐ bütün Şengen dövlətləri üçün etibarlı olmalı |
| **Yetkinlik yaşına çatmayanlar**<br>☐ Doğum haqqında şəhadətnamə *(əsli + surəti)*<br>☐ ərizəni təqdim etmək və bütün Şengen ölkələrinə səyahət etmək üçün valideyn/hüquqi qəyyumdan notarial qaydada təsdiq edilmiş razılıq *(əsli + surəti, 6 aydan köhnə olmamaq şərtilə)*<br>☐ valideyn/hüquqi qəyyumun pasportunun surəti<br>☐ valideyn/hüquqi qəyyumun vizasının surəti (surətləri) |
| **Azərbaycanda yaşayan əcnəbilər**<br>☐ Azərbaycanda qanuni yaşayışı təsdiq edən sənəd/ yaşamaq haqqında icazə *(əsli + surəti)*<br>☐ müraciət edilən vizanın bitəcəyi tarixdən sonra ən az 3 ay etibarlı olmalı |

| **Səfərin məqsədinə dair sübut**<br>☐ Şirkətin rəsmi blankında işgüzar tərəfdaşınızın imzalanmış və aşağıdakı məlumatları əks etdirən dəvətnaməsi: *(əsli, faks və ya pdf – formatında):* |
|---|

- dəvət edən şirkətin /iş adamının tam adı və ünvanı
- imzalayan şəxsin adı və vəzifəsi
- dəvət edilən şəxsin adı və doğum tarixi
- səfərin məqsədi və müddəti
- *tələb olunduğu təqdirdə:* rəsmi öhdəlik bəyannaməsi - *Verpflichtungserklärung nach §§ 66-68 AufenthG* (Şengen dövlətlərinin ərazisində olarkən səfər müddətində yaranan bütün xərclərin öhdəsinə götürülməsi haqqında)

□ *əgər varsa*: dəvət edən şirkətin Ticarət Reyestrindən çıxarışı (6 aydan köhnə olmamalı)

**yaxud**

□ sərgidə sərgilənəcək şirkətin aşağıdakı məlumatlarını əks etdirən yazılı dəvətnaməsi *(əsli, faks və ya pdf)*:
- dəvət edən şirkətin /iş adamının tam adı və ünvanı
- dəvət edilən şəxsin adı və doğum tarixi
- sərginin adı
- səfərin nəzərdə tutulan müddəti

**yaxud**

□ sərgiyə giriş bileti

**yaxud**

□ sərgi təşkilatçısı tərəfindən yazılı dəvətnamə

**Qalacağınız yerə dair sübut**

☐ hər bir qalacağınız yerə dair aşağıdakı məlumatları əks etdirən otel reservasiyası(ları) və ya vauçer
- ərizəçinin adı və soyadı
- qalma müddəti
- otelin əlaqə məlumatları (ünvan, telefon nömrəsi)

☐ **Gediş-gəliş üçün uçuş biletlərinin/ səyahətin** rezervasiyasına dair sübut

*Səfirlik vizanın əldə edilməsindən əvvəl təyyarə biletlərinin alınmasını qətiyyən məsləhət görmür!*

**Səfər xərclərinin maliyyələşdirilməsinə dair sübut**

☐ bank hesabından və ya kredit kartlarından son 3 ay üzrə çıxarışlar

☐ müntəzəm gəlirin olmasının sübutu (maaş hesabından çıxarış, vergi ödənişlərinə dair sənəd )

☐ səyahət çekləri

**Azərbaycanda iqtisadi və ailə bağlarınızın olduğunu sübut edən sənədlər (əgər müvafiq sənəd varsa)**

☐ yaxın ailə üzvləri haqqında sübut (nikah haqqından şəhadətnamə, doğum haqqında şəhadətnamə, şəxsiyyət vəsiqəsinin surəti)

☐ daşınmaz əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd və ya uzunmüddətli notarial qaydada təsdiq edilmiş kirayə/icarə müqaviləsi

**Müntəzəm gəlirin olmasının sübutu**

Pensiyaçılar:

☐ pensiya haqqında arayış

Muzdlu işçilər:

☐ əmək haqqı və QR-kodu göstərilməklə iş yerindən elektron arayış

**yaxud**

☐ iş yerindən rəsmi blank üzərində möhür, imza, tarix və aşağıdakı məlumatları əks etdirən rəsmi arayış: *(əsli ingilis dilində və ya Azərbaycan dilində olmaqla ingilis yaxud alman dillərində tərcüməsi ilə)*
- iş yerinin tam şəkildə ünvanı, telefon və faks nömrələri
- arayışı imzalayan şəxsin adı və vəzifəsi
- işçinin adı, vəzifəsi, əmək haqqısı və işlədiyi müddət

Sahibkarlar:

☐ Şirkətin dövlət reyestrində qeydiyyatı haqqında şəhadətnamə və Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN)

**və**

☐ viza ərizəsinin verildiyi tarixindən əvvəlki rüb üçün şirkətin maliyyə dövriyyəsini (AZN-la) əks etdirən QR kodlu vergi idarəsinin arayışı

Şagirdlər/tələbələr:

☐ Orta və ya ali məktəbdə qeydiyyatda olmaqları haqqında arayış